# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ARALIQ İLLİK ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Naxçıvan toponimlərinin elmi - linqvistik tədqiqi**
Qrantın məbləği: **15 000 manat**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/39/5-M-07**
Müqavilənin imzalanma tarixi: **19 yanvar 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 fevral 2015-ci il – 01 avqust 2016-cı il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Özünəməxsus semantik məna tutumuna və qrammatik xüsusiyyətlərinə görə diqqəti cəlb edən Naxçıvan toponimlərini toplamaq və elmi-linqvistik şəkildə tədqiq etmək onomastik leksikanın qarşısında duran mühüm məsələlərdən biridir. Bunnu nəzərə alaraq hesabat dövründə Babək, Ordubad, Culfa, Şahbuz, Şərur, Sədərək və Kəngərli rayonlarının kəndlərində toponimik tədqiqatlar aparılmış, Naxçıvanın dialekt və şivələrində, müxtəlif tarixi qaynaq, yol qeydləri, arxiv sənədləri, xəritə və digər mənbələrdə əksini tapan toponimlər araşdırılıb üzə çıxarılmışdır. Layihə çərçivəsində bölgənin oykonim, xoronim və urbanonimləri, oronim və dromonimləri, onların dil mənsubiyyəti, leksik-semantik, struktur-semantik xüsusiyyətləri, əmələ gəlmə və yaranma yolları, məna açımları təsviri və tarixi-linqvistik üsullardan istifadə edilməklə tədqiq və təhlil edilmişdir. |

| | |
|---|---|
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>Planda nəzərdə tutulmuş işlər 85 % yerinə yetirilmişdir. |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>Tədqiqat zamanı ilk dəfə olaraq passiv fondda keçmiş oykonim, xoronim və urbanonimlər ilk dəfə müasir toponimik səviyyədə, yeni faktlar əsasında tədqiq edilmiş, tarixin müxtəlif mərhələlərində bölgənin etnik tərkibi, inzibati-ərazi bölgüsü, sosial-iqtisadi.həyatı ilə bağlı yeni elmi nəticələr əldə edilmişdir. Layihə mövzusuna uyğun olaraq indiyə qədər bizə məlum olmayan oykonim və urbanonimlər tədqiq olunmuş, Naxçıvanın tarixi inzibati ərazi bölgüsünə daxil olan Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan, Dərələyəz nahiyələrin əhatə etdiyi coğrafi məkan, onların adları, nahiyələrə daxil olan yaşayış məntəqə adları qruplaşdırılaraq dil mənsubiyyətinə, məna və qrammatik xüsusiyyətlərinə görə öyrənilmişdir. Bu adların araşdırılıb üzə çıxarılması və tarixi-müqayisəli şəkildə təhlili layihənin yenilik dərəcəsini şərtləndirir və yeni elmi nəticələrin əldə edilməsini təsdiqləyir. Bununla bərabər Naxçıvan toponimlərinin ilk dəfə bütün növləri üzrə, yeni dil maerialları əsasında tədqiqi layihənin yenilik dərəcəsinin əsasını təşkil edir. |
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | Hesabat dövründə toponimlər bütün növləri üzrə ilk dəfə sistemli şəkildə tədqiq olunmuş, tarixi keçmişimiz, milli mənəvi dəyərlərimizlə bağlı yeni elmi nəticələrə əldə edilmiş və toponimlərin qrammatik xüsusiyyətləri müasir toponimik səviyyədə tədqiqata cəlb edilmişdir. Hesabat ilində mövzu ilə bağlı aşağıdakı məqalələr nəşr olunmuşdur.<br>1. Naxçıvan toponimləri tarixi qaynaqlarda // AMEA Naxçıvan Bölməsi, "Xəbərlər", İstimai və humanitar elmlər seriyası, 2015, № 1, s.115-124.<br>2. Oykonimlərin formalaşmasında tayfa adlarının rolu // AMEA Naxçıvan Bölməsi, "Xəbərlər", İstimai və humanitar elmlər seriyası, 2015, №3, s.165-174<br>3. Naxçıvanda Nuhla bağlı yer-yurd adlarının tarixi-etimoloji təhlili // Tarixi mənbələrdə Nuh peyğəmbər (Tərtib edəni: AMEA-nın müxbir üzvü F.Səfərov), Əcəmi NPB, 2015, s.129-140.<br>4 Naxçıvan oykonimlərinin əks olunduğu mənbələr (1924-1936-cı illər) // Naxçıvan muxtariyyəti tarixi nailiyyətdir (04-05 iyul 2014-cü ildə Ağbulaqda keçirilmiş beynəlxalq konfransın materialları), Naxçıvan, 2015, s.228-232<br>5.Нахчыванские топонимы в исторических источниках // Актуальные проблемы гуманитарных и естественных наук (Журнал научных публикаций, № 10 (октябрь), часть II, Москва, 2015, с.115-120<br>6. Osmanlı Arşiv Belgelerindeki yer isimlerinin Nahçıvan bölgesindeki izleri// Bosniya-Hersoqovinanın paytaxtı Sarayevo şəhərində keçirilmiş (28 sentyabr - 1 oktyabr 2015-ci il) "X.Uluslararası Böyük Türk Dli Kurultayı" nın materialları, s. 388-393.<br>Hesabat ilində 26-27 oktyabr 2015-ci il tarixlərdə Naxçıvan şəhərində keçirilmiş "Dədə Qorqud və Naxçıvan" beynəlxalq konfransında "Dədə Qorqud" kitabında Naxçıvan toponimləri" adlı məruzə ilə çıxış edilmiş və həmin məqalə çap üçün konfransın materiallarına daxil edilmişdir<br>Hesabat dövründə "Naxçıvan toponimlərinin elmi-linqvistik tədqiqi" adlı monoqrafiya üzərində iş davam etdirilmişdir. |

| | |
|---|---|
| | |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | yoxdur |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | yoxdur |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | Layihə mövzusunun yerinə yetirilməsi üçün il boyu Babək, Şərur, Ordubad, Culfa, Şahbuz, Sədərək və Kəngərli rayonlarına daxil olan kəndlərə fərdi qaydada ekspedisiyalar təşkil edilib. |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | Yoxdur |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | Mövzu ilə bağlı AMEA Naxçıvan Bölməsində keçirilən "Dədə Qorqud"və Naxçıvan " beynəlxalq konfransında və Naxçıvanşünaslıq Mərkəzində "Naxçıvanda "Dədə Qorqud" toponimləri", Naxçıvan televiziyasında " Naxçıvanın onomastik vahidləri" mövzularında elmi məruzələr və çıxışlar edilmişdir. |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | Tədqiqat zamanı EİF tərəfindən verilmiş kompyuter və digər avadanlıqlardan səmərəli istifadə edilmişdir. |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | AMEA Dilçilik İnstitutu, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Universitetinin müvafiq kafedraları ilə yaradılmış əlaqələr davam etdirilir. |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | Türkiyənin Ankara şəhərindəki İldırım Bəyazid Universiteti və İzmir şəhərindəki Ege Universiteti ilə əlaqələr mövcuddur. Mövzu ilə bağlı bu ilin aprel ayında İldırım Bəyazid Universitetinin müvafiq fakultəsində "Azərbaycan dilinin onomastik vahidlər sistemi", "Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri" və "Ankara şəhərinin topoqrafik obyekt adları" mövzularında mühazirə və seminar aparmaq nəzərdə tutulmuşdur. |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | Naxçıvan toponimlərinin tədqiqi ilə bağlı bir nəfərin dissertasiya işi tamamlanmaq üzrədir. |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | AMEA-nın 70 illiyi münasibətilə Bakı şəhərində və AMEA Naxçıvan Bölməsində "Dədə Qorqud və Naxçıvan" beynəlxalq konfransı ilə əlaqədar təşkil olunmuş sərgilərdə kitab və məqalələrlə təmsil olunmuşdur |

| | |
|---|---|
| | |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | yoxdur |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | "Azərbaycan", "Şərq qapısı", "Nuh yurdu" qəzetlərində mövzu ilə bağlı yazılar dərc olunmuş, Naxçıvan televiziyasında çıxışlar edilmişdir. |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*
" __" _________ 201_-cü il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

____________________
*(imza)*
" __" _________ 201_-cü il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Bağırov Adil Nəsib oğlu

____________________
*(imza)*
" 04" fevral 2016 -cı il